**UOT 316**

**Fəridə TAĞIZADƏ**
*Dissertant*
*Əmək və Sosial Problemlər üzrə*
*Elmi-Tədqiqat və Tədris Mərkəzi*

# AİLƏ SOSİAL İŞİN OBYEKTİ KİMİ*

## Giriş

Tarixən hər bir ölkənin qüdrəti onun hərbi gücü və iqtisadi inkişaf səviyyəsi göstəricilərinə əsasən müəyyən olunurdu. Lakin zaman keçdikcə bu göstəricilər sırasına sosial təbəqələrin həyat səviyyəsi, insanların sosial problemlərlə mübarizə aparması üçün mövcud resurslarla təmin olunması da daxil edildi.

İnsanların həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində görülən tədbirlərin sayı artmış, sosial müdafiə sahəsində yeniliklərin əldə olunması və bu sahədə daha mütərəqqi addımların atılması üzrə fəaliyyət güclənmişdir.

## 1. Ailələrin sosial müdafiəsi və sosial işin rolu

Hər bir dövlət ideal cəmiyyət qurmaq arzusundadır. Bunun üçün cəmiyyəti formalaşdıran fərdlərə nəzər yetirmək lazımdır. Cəmiyyətin inkişafı yeni nəsillərin sağlam yetişdirilməsinə və mükəmməl təhsilinə bağlıdır. Bu baxımdan istər ailənin, istərsə də cəmiyyətin qarşısında mühüm vəzifələr durur. Fərdlər ailələrdə formalaşır, yetişir. Bu isə ailə institutunun nə qədər əhəmiyyətli rola malik olmasından xəbər verir.

Ailə insanın doğulduğu, böyüdüyü və cəmiyyətin üzvü olmaq üçün hazırlandığı bir institutdur, sosial özəkdir. Ailə münasibətlərin müstəqil tənzimlənməsi, kamil şəxsiyyətlər tərbiyə etməsi üçün böyük məsuliyyət daşıyır. Ailənin ən mühüm funksiyaları reproduktiv, təsərrüfat-tələbat, tərbiyəedici və bərpaedici funksiyalardır.

Ailələr tərkib, iqtisadi vəziyyət, mədəni-etnik və təhsil baxımından çox müxtəlifdir. Ailənin öz üzvləri qarşısında ictimaiyyət tərəfindən əvəz edilə bilməyən, lakin resurslar və xidmətlər vasitəsi ilə dəstəklənə bilən əsas öhdəlikləri mövcuddur. Ailə öhdəliklərinə ailə üzvlərinin iqtisadi ehtiyaclarını qarşılamaq, sağlamlığını qorumaq, müdafiə etmək, təhsillə təmin etmək, sosiallaşmaq, ailəni qoruyub saxlamaq və s. daxildir [1].

Ailə böhran vəziyyətinə düşdükdə müəyyən çətinliklərlə qarşılaşır və əsas funksiyalarını yerinə yetirə bilmir. Bu səbəbdən dövlətin iqtisadi və sosial siyasəti ailənin həyat fəaliyyətinin təmin olunmasında mühüm əhəmiyyətə malikdir. Hazırkı dövrə kimi uşaqlı ailələrə dövlət tərəfindən göstərilən yardımın dörd əsas formasını qeyd etmək olar:

1. Uşaqların doğulması, saxlanılması və tərbiyəsi ilə bağlı müavinətlər və təqaüdlərin ödənilməsi.
2. Ailəyə sosial xidmətlərin göstərilməsi (konkret olaraq psixoloji, hüquqi, pedaqoji yardımın göstlərilməsi, məsləhətvermə və s.).
3. Uşaqlı ailələrə, tənha valideynlərə, valideyn himayəsindən məhrum olmuş uşaqlara nəzərdə tutulmuş güzəştlər (əmək, vergi, yaşam, kredit, tibbi və başqa).
4. Ailə və uşaqların bəzi ehtiyaclarının pulsuz təmin olunması (qida, dərman, geyim və ayaqqabı və s.).

Bunu nəzərə alaraq qeyd etmək olar ki, Azərbaycan Respublikasında iqtisadi inkişafın təmin olunması ilə bərabər bütövlükdə cəmiyyətin və onun həssas, sosial yardıma ehtiyacı olan

* Məqalə fəlsəfə ü.f.d. Mətləb Mahmudov tərəfindən çapa məsləhət görülüb.

təbəqələrinin rifahının yüksəldilməsi istiqamətində də ciddi tədbirlər görülməkdədir. Belə ki, respublikamızda bu istiqamətdə bir sıra dövlət proqramları həyata keçirilir, eyni məqsəd uğrunda müxtəlif qurumlar fəaliyyət göstərir və onların işinə dəstək olunur.

Qeyd etdiyimiz kimi, yardıma ehtiyacı olan ailələrə yardım məqsədilə müxtəlif dövlət və qeyri-hökumət qurumları fəaliyyət göstərir. Bu istiqamətdə Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin rolu danılmazdır. Komitənin tabeçiliyində 11 Uşaq və Ailələrə Dəstək Mərkəzləri fəaliyyət göstərir. Ölkə Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə bu sahədə fəaliyyət göstərən mərkəzlərdən 2007-ci ildə Şüvəlan və Goranboy Mərkəzləri, 2010-cu ildə daha 9 mərkəz (Zaqatala, Qəbələ, İsmayıllı, Göygöl, Ağdam, Hacıqabul, Saatlı, Sabirabad, Zərdab) Dövlət Komitəsinin tabeçiliyinə verilmişdir [2].

Uşaq və Ailələrə Dəstək Mərkəzi icmada risk qrupundan olan uşaq, qadın və ailələrə dəstəyi özündə birləşdirir və xidmətlərin əhaliyə çatdırılmasını təmin edir, fors-major hallarda lazımi yardım və xidmətləri həyata keçirir.

Uşaq və Ailələrə Dəstək Mərkəzinin xidmətlərindən istifadə edən qruplara misal olaraq aşağıdakıları aid etmək olar [2]:

1. Sağlamlıq imkanları məhdud olan uşaqlar və onların ailələri.
2. Valideyn himayəsindən məhrum olan, kimsəsiz və baxımsız uşaqlar.
3. Sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmamış şəxslər və onların ailələri.
4. Aztəminatlı ailələr.
5. Qaçqın və məcburi köçkünlər, habelə şəhid ailələri.
6. Uşaq müəssisələrində olan uşaqlar və onların ailə üzvləri.
7. Zorakılığa məruz qalmış şəxslər.
8. Cəzaçəkmə müəssisələrindən azad olmuş şəxslər.
9. Tək valideyni olan və foster ailələrdə böyüyən uşaqlar.

Bu kateqoriyadan olan insanlara sosial işçilər, sosial pedaqoqlar, psixoloqlar və digər komanda üzvləri tərəfindən sosial xidmətlər göstərilir.

Peşəkar elmi bazaya, bacarıqlara malik olmaq və çətin həyat şəraitində yaşayanlara yardımı bunların əsasında qurmaq digər peşə sahiblərindən fərqli olaraq məhz sosial işçilərə məxsusdur.

Sosial iş - sosial problemlərin aradan qaldırılması və çətin həyat şəraitində yaşayan insanlara birdəfəlik yardım deyil, sistemli və təşkil olunmuş elmi bir yanaşmadır.

Sosial iş tarixən ehtiyacı olan insanlara yardım və dəstək olaraq sədəqə, filantropiya, xeyriyyəçiliklə səciyyələnirdi. Bu yardım növləri ilə xüsusən nikahdan kənar doğulmuş uşaqlar, valideyn himayəsindən məhrum olmuş uşaqlar, ahıllar, əlilliyi olan şəxslər qayğı ilə daha çox əhatə olunurdu. Lakin bu yardımların daha geniş əhali qrupunu əhatə etməsi və sistemli şəkildə mütəxəssislər tərəfindən həyata keçirilməsi yeni bir peşə - sosial işin yaranması ilə müəyyən olundu.

Sosial iş bir peşə kimi XIX əsrin sonlarında yaranmışdır. XIX əsrin 80-ci illərində ABŞ-ın Kolumbiya Universitetində ilk dəfə olaraq sosial iş fakültəsi açılır və məhz həmin dövrdən başlayaraq sosial iş ixtisas və ayrıca bilik sahəsinə çevrilməyə başlayır.

ABŞ-da sosial işçi - Təhsil Şurası (CSWE) tərəfindən təsdiq olunmuş sosial iş üzrə bakalavr və ya magistr dərəcəsi alan şəxsdir [3].

Qərbdə sosial işin bir peşə kimi yaranması xeyriyyəçilik təşkilatlarının yaranması və inkişafı ilə əlaqədar olmuşdur.

Avstraliyada isə sosial iş İngiltərə və ABŞ-dan fərqli olaraq nisbətən gec inkişaf etmişdir. Belə ki, Sidney Universitetində sosial iş təlimlərinə 1940-cı ildə başlanılmışdır.

Azərbaycanda "sosial iş" anlayışı XX əsrin sonu və XXI əsrin əvvəllərində istifadə olunmağa başlanmışdır. Artıq 6 universitetdə "sosial iş" ixtisası tədris olunmaqdadır [3].

Sosial işin tərifi, sosial işçinin hüquq və vəzifələri ilk dəfə 2012-ci ildə qəbul olunmuş "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda öz əksini tapmışdır. Qanuna əsasən, sosial işçi sosial xidmətə olan tələbatı qiymətləndirən və müəyyən edən, eləcə də sosial xidmət göstərən şəxsdir. Qanunda çətin həyat şəraitində olan şəxsin (ailənin) hüquqları, vəzifələri, sosial xidmət üçün müraciət etmə qaydaları, sosial xidmətə olan tələbatın qiymətləndirilməsi və sosial xidmətə götürülməsi qaydaları öz əksini tapmışdır. Başlıca məqsəd vətəndaşların həyat səviyyəsini ağırlaşdıran, sosial-psixoloji vəziyyətini çətinləşdirən, cəmiyyətdən təcrid olunmasına gətirib çıxaran halların qarşısını almaq, çətin həyat şəraitinin əmələ gəldiyi hallarda ehtiyacı olan şəxslərə sosial xidmətin göstərilməsini təmin etməkdir [4].

Sosial işçi və sosial xidmətçi anlayışları təəssüf ki, əksər hallarda bir çoxları tərəfindən eyni anlayış olaraq qəbul edilir. Halbuki "Sosial xidmət haqqında" Azərbaycan Respublikası Qanununa əsasən, sosial xidmətçi sosial-məişət xidmətləri göstərən şəxsdir və sosial işçi kimi ali təhsil almaya bilər. Lakin sosial işçi olmaq istəyən hər bir şəxsin bu sahədə bakalavr təhsili olmalıdır. Bakalavr təhsilli sosial işçilər ümumi sosial işçilər adlanır. Hər hansı bir sosial iş sahəsi üzrə ixtisaslaşmaq üçün isə bakalavrdan əlavə sosial iş üzrə magistr səviyyəsində təhsil almaq lazımdır.

Sosial iş yardıma ehtiyacı olan şəxs və digər dövlət resursları arasında əlaqələndirici rolunu oynayır. İnsanların rifahı üçün sosial dəyişikliklər etmək, insanlar arasındakı münasibətlərdə problemləri həll etmək və insanların rifahını yüksəltmək məqsədilə onları daxili güclərinə və daxili potensiallarına arxalanmağa yönəltmək sosial işin məqsədlərindəndir [5].

Sosial işin əsas məqsədi sosial ədalət prinsipini rəhbər tutaraq bütövlükdə cəmiyyətin, xüsusilə də həssas əhali qruplarının rifahını yüksəltməkdir. Sosial iş sinfindən və gəlirindən asılı olmayaraq ehtiyac içində və ya çətin həyat şəraitində olan bütün vətəndaşlara kömək edən bir sahədir. Həssas əhali qruplarına daxil olan şəxslərə aşağıdakıları misal göstərmək olar:

- əlilliyi olan şəxslər və onların ailələri;
- aztəminatlı ailələr;
- ailə himayəsindən məhrum olmuş uşaqlar;
- zorakılıq və dağılma riski ilə üzləşən ailələr;
- qaçqın və məcburi köçkünlər;
- ahıl insanlar;
- spirtli içkilər, narkotik və digər zərərli maddələrə aludə olan şəxslər;
- insan alverinə və küçə həyatına məruz qalmış şəxslər;
- cəzaçəkmə müəssisələrində olan və bu müəssisələrdən azad olmuş şəxslər;
- müxtəlif səbəblərdən sığınacaq axtaran şəxslər və b.

Ümumiyyətlə, beynəlxalq ədəbiyyatlarda da Sosial iş daima Sosial Ədalət və Sosial Rifah anlayışları ilə paralel şəkildə işlədilir. Bu da Sosial işin cəmiyyətdə Sosial Ədalətin formalaşmasına yönəlmiş bir elm sahəsi olduğunu göstərir [6].

Sosial işin inkişaf etdiyi cəmiyyətlərdə sosial işçilər məktəblərdə, bağçalarda, səhiyyə sahəsində, ailə və uşaq rifah mərkəzlərində, ruhi sağlamlıq mərkəzlərində, xəstəxanalarda, poliklinikalarda, cəzaçəkmə müəssisələrində, sənaye sektorunda, reabilitasiya mərkəzlərində, icma inkişafı, yoxsulluğun aradan qaldırılması sahələrində, böhran mərkəzlərində, sosial xidmət göstərən bütün müəssisələrdə işləyirlər. Sosial işçilər həm özəl, həm dövlət, həm də ictimai, yəni QHT sektorunda fəaliyyət göstərirlər [7].

Sosial işçilər – fərdlər, ailələr, qruplar və icmaların düşdüyü çətin vəziyyəti qiymətləndirir, ehtiyacları müəyyənləşdirir və buna uyğun olaraq müdaxilə planı hazırlayaraq onlara qarşılaşdıqları problemləri müstəqil şəkildə həll etmək bacarıqlarını gücləndirməkdə yardımçı olurlar [8].

2. **Ailələrlə sosial işin təşkili mərhələləri**

Ailələrlə sosial iş sosial iş praktikasının ən böyük sahəsidir. Onun bünövrəsi 1920-ci ildə qoyulub. Yaradılarkən əsas məqsədi “Dağınıq ailələr” ilə işləmək idi. Hal-hazırda isə bu sahə çox geniş inkişaf etməkdədir. Bu sahədə çalışan sosial işçilər uşaq və ailələrin rifahını yaxşılaşdırmaq üçün həm makro, həm də mikro səviyyədə iş apararaq onlara kömək edir. Sosial işçilərin əsas məqsədi uşaqları təhlükədən qorumaq və onların ailələrinin yanında qalmaları üçün bir çox xidmətləri səfərbər etməkdir [7].

Ailələrlə sosial işin obyektinə aşağıdakıları aid etmək olar [9]:

- natamam ailələr;
- çoxuşaqlı ailələr;
- çətin həyat şəraitində yaşayan ailələr;
- foster ailələr;
- sağlamlıq imkanları məhdud uşaqları olan ailələr;
- əlilliyi olan valideynlərin ailələri;
- yaşlı insanların ailələri;
- alkoqol, narkotik və s. zərərli maddələrin aludəçisi olmuş şəxslərin, deviant davranışlı şəxslərin ailələri;
- miqrantların, qaçqın və məcburi-köçkünlərin ailələri;
- daimi yaşayış yeri olmayan ailələr;
- ailə üzvləri işsiz olan ailələr;
- gənc ailələr və b.

Ailələrlə iş zamanı onların fikirləri, istəyi işin aparılmasının əsas hədəfi olmalıdır. Ailələr fərqli olduqları üçün hər bir ailə ilə aparılan işdən eyni nəticəni gözləmək doğru olmaz. Ailənin maraqları, ümidləri, güclü tərəfləri və narahatlıqları sosial işçinin diqqət mərkəzində olmalıdır. Yalnız ailələrin fərqliliyi dəyərləndirildikdə və ailə ona hörmət bəsləndiyini hiss etdikdə müsbət nəticələr əldə etmək mümkündür. Ailənin seçimləri və prioritetləri xidmətin göstərilməsi zamanı aparıcı qüvvə olmalıdır. Ailələrlə aparılan sosial iş prosesində yaxın tanışlar, dostlar, icma qrupları, sosial təşkilatlar, məktəblər və s. ilə əlaqələrin qurulması və onlardan istifadə, ailəni əhatə edən müxtəlif sistem və qurumlarla əlaqələrin inkişaf etdirilməsi vacib proseslərdəndir.

Sosial işçi kliyentlə ilkin psixoloji yardımı həyata keçirə bilməli, onu özünə köməyə yönəltməyi bacarmalıdır. Ailəyə həqiqi kömək yalnız sosial və psixoloji işin əlaqələndirilməsi ilə göstərilə bilər. Bu səbəbdən müxtəlif kateqoriyalı ailələrlə sosial işin psixoloji xüsusiyyətlərini və onların yaranmış problemlərinin aradan qaldırılması üçün psixoloji imkanları bilmək, konkret ailənin rifah səviyyəsini, onun psixoloji sağlamlığını qiymətləndirmə bacarığı hər bir sosial işçi üçün zəruridir.

Mütəxəssislərin fikirlərinə əsasən, ailələrlə sosial iş zamanı əsas prinsiplər bunlardır:

- uşaq hüquqları və maraqlarının üstün tutulması, onun hərtərəfli inkişafı və insani ləyaqətinə hörmət;
- valideynlərin hüquqlarına hörmət, sosial xidmət tərəfindən ailədəki vəziyyətin obyektiv və səriştəli qiymətləndirilməsi;
- ailə ilə iş zamanı sosial işçilər tərəfindən uşaqlar üzərində zorakılıq riskinin olmadığı təqdirdə məxfiliyin gözlənilməsi;
- hakimlik və nəzarətdən əsaslandırılmış şəkildə istifadə;
- ailədə əlverişsiz amillərin nəzərə alınması, risk mövqeyindən və s. yanaşma.

Ailələrlə işləyərkən ona bir sistem olaraq yanaşmaq lazımdır. Ailəni bir sistem olaraq anlamaq üçün onun təməl xüsusiyyətlərinə, yəni digərlərindən fərqləndirən xüsusiyyətlərinə diqqət yetirmək lazımdır. Belə ki, bunlar hər bir ailənin mədəni quruluşu, forma və ölçüsü, sosial-iqtisadi vəziyyəti, məskunlaşdığı ərazi, ailə üzvlərinin sağlamlıq vəziyyəti, üzvlərinin

həbsdə olub-olmaması, hər hansı bir fərdin əlilliyi, qaçqın və ya məcburi-köçkün statusu xüsusiyyətləridir [10].

Sistem nəzəriyyəsinə görə ailə üzvlərini müstəqil olaraq analiz etmək mümkün deyildir. Fərd ailə içərisində araşdırıldıqda sistemin bir parçasını əmələ gətirir. Ailə içərisində fərdi anlamaq onun digər üzvlər ilə necə ünsiyyət qurduğunu anlamaqdır. Ailə sisteminin komponentləri bir-biri ilə əlaqədardır və fərdlərdən hər birinin davranışı bütündən ayrı seçilə və müalicə edilə bilməz [11].

Sosial iş prosesi əsas 6 mərhələdən ibarətdir [7].

1. Tanışlıq və cəlbetmə.
2. Məlumatın toplanması və təhlili (qiymətləndirmə).
3. Planlaşdırma və müqavilənin bağlanması.
4. Müdaxilə və monitorinq.
5. Yekun qiymətləndirmə və işin bitməsi.
6. İzləmə (nəzarət).

İlkin mərhələ tanışlıq və cəlbetmə adlanır. Sosial işçi və kliyentin (bizim kontekstdə ailə və uşaqlar) tanışlıq mərhələsində sosial işçi qarşı tərəfdə inam və etibar yaratmaq üçün öz professional ünsiyyət bacarıqlarından istifadə etməlidir. İlk görüşün mümkün olduğu qədər qısamüddətli olmasına, ailə üzvlərinin ilkin söhbətdə sıxılmamasına və şəxsi problemlərlə bağlı çox danışmamağa diqqət edilməlidir Bu mərhələdə yardım üçün müraciət edən şəxslə doğru, müsbət əlaqələrin qurulması onun işə həvəsini artırır və bu növbəti mərhələlərə də öz təsirini göstərir. Bu baxımdan tanışlıq və cəlbetmə mərhələsi çox əhəmiyyətlidir.

Səmimi bir mühit yaratmaq üçün ilkin görüşdən sonra ictimai mühitlərdə ailə ilə görüşlər təşkil olunmalıdır. Sosial işçi söhbət zamanı kliyenti konfidensiallığın qorunulacağına dair əmin etməli, xüsusi hallar yaşanarsa, ondan icazə alınaraq müəyyən yerlərə informasiya veriləcəyinə dair məlumatlandırmalıdır.

İkinci ən önəmli mərhələ qiymətləndirmə adlanır. Qiymətləndirmə zamanı sosial işçi ümumi vəziyyət, problemlər, ehtiyaclarla bağlı məlumat toplayaraq onları təhlil edir. Düzgün qiymətləndirmənin aparılması nəticəyə birbaşa təsir edir. Əgər ailə ilə bağlı hər hansı bir məlumat nəzərə alınmasa, gözdən qaçsa bu, müdaxilə planının yanlış tutulmasına səbəb olacaq və kömək prosesi öz nəticəsini verməyəcəkdir. Bu səbəbdən sosial işçilər uşaq və onun ailəsi haqqında heç bir məlumatı və faktı gözdən qaçırmamalıdırlar.

Qiymətləndirmə mərhələsində ailənin hər bir üzvü, icma, məktəb, tibb işçiləri və eyni zamanda onlarla birbaşa əlaqəsi olan şəxslər, mütəxəssislərlə söhbət aparılmalıdır. Ailənin qiymətləndirilməsi bir sıra məqsədlərə nail olmaq üçün aparılır [11] :

1) ailəyə fayda verə biləcək müdaxilələrdən ən uğurlu nəticələrin əldə olunması;
2) ailədə hansı dəyişikliklərin aparılmasının müəyyənləşdirilməsi;
3) qısamüddətli və uzunmüddətli məqsədlərin müəyyənləşdirilməsi;
4) ailənin güclü yönlərini üzə çıxarmaq və resursları təyin etmək;
5) ailənin funksiyalarını anlamaq və hədəflərini qarşılıqlı olaraq təyin etmək.

Məlumat toplandıqdan sonra sosial işçi ailə ilə bağlı ətraflı hesabat hazırlayır. Müəyyən olunan məlumatlara əsasən sosial işçi ailə ilə birgə tələb olunan xidmət və müdaxilələri özündə əks etdirən fərdi qayğı planı hazırlayır. Məlumatları toplamaq üçün bir sıra metodlardan istifadə oluna bilər. Bunlara misal olaraq ekomap, genoqram, mühüm hadisələrlə bağlı siyahıların tərtibini və s. göstərmək olar.

Müdaxilə planı, qeyd etdiyimiz kimi, ailə ilə birgə hazırlanır və bundan sonra onun icrasına başlanılır. Planın icrası bitdikdən sonra isə sosial işçi icra olunan fəaliyyətləri qiymətləndirərək əldə olunan nəticələr, görülən işlər, gələcək planlar üçün tövsiyələrdən ibarət forma hazırlayaraq işi bağlamalıdır.

Qeyd etmək lazımdır ki, bu mərhələlərin hər birində - ümumi iş prosesində sosial işçi səmimi olmalı və fikirlərini lazımi yerdə olduğu kimi çatdırmağı bacarmalıdır. Onun məsuliyyətləri müxtəlif və qarışıqdır. Sosial işçi rəftarında diqqətli olmalıdır. Ailədə valideynlərin məsuliyyətlərini lazım olarsa onlara izah etməli, uşağın ana və atası ilə olan münasibətlərini gücləndirməyə çalışmalıdır. Ondan soruşulan suallara verdiyi cavablarda və verdiyi məlumatlarda dürüst olmalıdır. Ən önəmlisi isə ailəyə güvən verməli, onların qorxularını azaltmalı, sakitləşdirməli və ümidləndirərək məqsədə doğru yönəltməyi bacarmalıdır. Məqsədə çatmaq üçün qərarların verilməsində isə ailəni sərbəst buraxmalıdır.

Nəticə olaraq onu qeyd edə bilərik ki, sosial iş prosesi yalnız bu sahədə nəzəri və praktiki bilik və bacarıqlara malik olan mütəxəssislərin çalışmalı olduğu bir sahədir. Fərdlər ailələri, ailələr cəmiyyəti, cəmiyyət isə dövləti formalaşdırdığından, istər mikro, istərsə də makro səviyyədə fəaliyyət göstərən sosial işçi ilk növbədə düşünməlidir ki, o, yalnız fərdlər deyil, bütövlükdə cəmiyyət və dövlət üçün çalışır. Bu böyük məsuliyyəti yalnız sosial iş sahəsində peşəkar biliklərə malik olan mütəxəssis daşıya bilər.

**Açar sözlər:** *sosial iş, ailə, sosial işçi, uşaq, qiymətləndirmə, sosial yardım, sosial xidmət, mərhələ.*

**İstifadə olunmuş ədəbiyyat**

1. Ailəyə dəstək üçün təlimat. Bakı, 2000.
2. http://scfwca.gov.az/?page_id=87 (AQUDPK)
3. https://socialworkaz.wordpress.com/category/sosial-is/page/2/
4. Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu www.anl.az
5. http://www.unesco.org/education/mebam/module_3.pdf Social Work Module 3 disability
6. http://uafa.az/az/0-3/
7. http://www.socialworkdegreeguide.com/faq/what-is-cswe-accreditation/
8. http://azswu.org/az/n%C9%99srl%C9%99r/
9. https://xreferat.com/84/3809-1-social-naya-rabota-s-sem-eiy.html
10. http://alonot.com/aof-ailelerle-sosyal-hizmet-ders-notu/
11. xa.yimg.com/kq/groups/18362369/.../Etik+kodeks_AZE Azərbaycan sosial işçilərin etik kodu

**Фарида ТАГИЗАДЕ**

## СЕМЬЯ КАК ОБЪЕКТ СОЦИАЛЬНОЙ РАБОТЫ

**Резюме**

В статье дана краткая информация об истории социальной работы в Азербайджане и обращено внимание на целевые группы в социальной работе.Отмечена необходимость работы социальных работников с семьями, входящими в уязвимые группы населения и важность организации этапа оценки. Далее говорится об использовании законодательной базы в осуществлении социальной работы в республике и деятельности, структур в области социальной защиты.

**Ключевые слова:** *социальная работа, семья, социальный работник, дети, оценка, социальная помощь, социальная служба, этап*

**Farida TAGHIZADEH**

## FAMİLY AS AN OBJECT OF SOCİAL WORK

### Summary

İn the article the brief information about the history of social work in Azerbaijan is offered and the target groups in social work have been considered. There is noted the necssity of this work with vulnerable population groups and its importance in the evaluation stage. Fuzther, it is stated on Legislative base, which is used in the implementation of social work in Azerbaijan and discussed the work of activites in sphere of social protection.

**Keywords:** *social work, family, social worker, children, evaluation, social assistance, social services, stage*